Mələk Allahverdi qızı Əliyeva
AMEA İqtisadiyyat İnstitutu
E-mail: melekaliyewa@gmail.com
UOT:368; JEL: G00; G22; G52

Sığorta sisteminin inkişaf xüsusiyyətləri

Xülasə

*Sığorta əsasən müasir dünyanın baş vurduğu riskləri kompensassiya etmək metodudur və bir digər xüsusiyyəti fond yaratma funksiyasıdır ki, bununla da ÜDM-də əks olunaraq ölkələrin makroiqtisadi gücünün müqayisəsində dolayı yolla iştirak edir. Bu da öz növbəsində sığorta sistemi güclü olan ölkələr eyni zamanda iqtisadi və sosial cəhətdən rifah keçirən ölkələrdir fikrini yaradır. Bu fikrin nə dərəcədə doğru olmasını və ölkəmizdə sığortanın mövqeyini müəyyən etmək üçün müqayisəli təhlildən istifadə edəcəyik. Məqalədə sığorta siteminin müasir təcürbədə təşkili və inkişaf xüsusiyyətlərinə diqqət yetirilir. Bu sahədə əldə olunan tərəqqi və mövcud vəziyyət araşdırılır. Həmçinin, m*əqalədə sığorta bazarının inkişafının rifah ilə əlaqəsi və buna paralel olaraq Azərbaycanın dünya sığorta bazarında yerini müəyyən etmək və onu geri salan amilləri təyin etmək üzrə təhlillər də aparılır.

Açar sözlər: *sığorta, sığorta sıxlığı, qeyri-həyat sığortası, həyat sığortası, sığorta fondları.*

Giriş

Sığorta elə bir məfhumdur ki, bazar, maliyyə, məzənnə, məsuliyyət, həyat və sair kimi çeşiddə ən müxtəlif riskləri öhdəsinə götürməklə hadisə baş verdikdə dəymiş zərəri kompensasiya etməyə qadirdir. Bu baxımdan da sığorta sistemi özlüyündə mürəkkəb anlayışdır. Onun inkişaf etməsi və çoxşaxəli olması iqtisadiyyat ilə, iqtisadiyyatın isə hərtərəfli inkişafı və riskləri yəni baryerləri aşaraq yaxud da onları nəzərə alaraq ciddi reformu sığorta bazarının inkişafından asılıdır və burada qarşılıqlı əlaqə mövcuddur. Müasir dövrdə sığorta ilə bağlı bir fikir möhkəmlənir ki, sığorta bazarı inkişaf etmiş ölkələr eyni zamanda da rifah keçirən ölkələrdir. Bu fikrin nə dərəcədə doğru olması isə məqalənin təhlil mövzularından biridir. Sığorta bazarının dünyada və Azerbaycanda inkişaf tendensiyasını müəyyən etməyə çalışmaqla sığortanın ölkəmizdəki inkişaf impulslarını və müəyyən hallarda isə ölkəmizi geri salan amilləri öyrənməyə çalışmışıq. Bu məqsədlə də sığorta bazarının dünyada və Azərbaycanda inkişaf amilləri tədqiq edilmişdir. Nəticə isə həm maraqlı həm də proqnozlaşdırılan situasiyadan bir qədər fərqli olmuşdur. Müəyyən hallarda Azərbaycan sığorta bazarına görə qonşu ölkələri geridə qoysa da, digərlərində isə nisbətən zəif nəticələr göstərmişdir.

Sığorta bazarının dünyada və ölkəmizdə yerinin müqayisəli təhlili

Ölkələri müqayisəli təhlil etməkdən ötrü sığorta bazarında inkişafı ilə fərqlənən və Azərbaycan ilə qonşu ölkələri qəlib olaraq seçdik. Belə bir qəlibin seçilməsində məqsəd, girişdə də qeyd etdiyimiz kimi həmin ölkələrdə rifahın, sosial-iqtisadi vəziyyətin qiymətləndirilməsinə və qonşu ölkələrin isə seçilməsi ilə region haqqında ümumiləşmiş fikir yaratmağa kömək edəcəkdir. Cədvəl 1-də əks olunduğu kimi ABŞ, İsveçrə, Danimarka, İrlandiya, Finlandiya, Niderland, Böyük Britaniya, Lüksemburq, İsveç, Kanada adambaşına düşən sığorta haqlarına görə yəni sığorta sıxlığına görə sıralamada ilk yerləri tutmuşdur.

Cədvəl 1.

Sığorta bazarı üzrə ölkələrarası müqayisə (2020).

Sıra	Ölkələr	Sığorta sıxlığı	ÜDM (adambaşına)
1.	ABŞ	7673	63028
2.	İsveçrə	7224	71745
3.	Danimarka	6521	60230
4.	İrlandiya	5588	93350
5.	Finlandiya	5218	50937

6.	Niderland	5022	59267
7.	B.Britaniya	4523	46527
8.	Lüksemburq	4482	117846
9.	İsveç	3938	55065
10.	Kanada	3775	46572
11.	Koreya	3741	45226
12.	Norveç	3380	62645
13.	Fransa	3317	46991
14.	Yaponiya	3280	42100
15.	Almaniya	3108	54845
16.	Belçika	2719	53070
17.	İtaliya	2692	41988
18.	Avstraliya	2448	53317
19.	Avstriya	2311	55686
20.	Y.Zelandiya	2027	44658
21.	İslandiya	1583	53617
22.	İspaniya	1396	37756
23.	Çin	455	17189
24.	İran	190	15791
25.	Rusiya	145	29916
26.	Türkiyə	130	27235
27.	Ermənistan	96	13311
28.	Qazaxıstan	67	26750
29.	Gürcüstan	55	14731
30.	Azərbaycan	42	14479

Mənbə: Cədvəl World Bank (2020); Swiss Re (2020) OCED (2020) mənbələri əsasında müəllif tərəfindən hazırlanmışdır.

Sığortanın ölkələr üzrə inkişaf tendensiyasını onun payının ÜDM-də faiz nisbəti ilə də müşahidə etmək olar. Sığorta sistemi tam formalaşmış ölkələrdə bu faiz nisbəti yüksək olmalıdır. Qrafik 1-də yuxarıda göstərilən 30 ölkə əsasında ÜDM ilə toplanan cari sığorta haqları arasında təhlil aparılmışdır. Belə ki, ABŞ (12.1%), Danimarka (10.83%), Finlandiya (10.24%), İsveçrə (10.07%), B.Britaniya (9.72%) göstərici ilə qrafikdə ilk yerləri tutmuşdur (Qrafik 1). Burada Azərbaycan qonşu ölkələrdən yalnızca Qazaxıstanı (0.25%) üstələyib, yığılmış toplam sığorta haqlarının ÜDM-də payı təqribi 0.3% olmuşdur. Qrafik 1-dən də görsəndiyi kimi, İran 1.2% nisbətlə qonşu ölkələr arasında ən yaxşı hesab olunur. Dünya ölkələrinin sığortanın inkişafını ölçən alət - sığorta sıxlığı və adambaşına düşən ÜDM üzrə mövqeyinin müqayisəli təhlili inkişaf etmiş ölkələrdə sığorta bazarının yüksək səviyyədə olmasını göstərir, əldə etdiyimiz nəticə bu istiqamətdəki fikirlərimizi doğrultmuşdur. Sığorta bazarının ölkə üzrə tam formalaşması və möhkəmlənməsi isə dayanıqlı iqtisadi inkişafı təmin edə bilər. Azərbaycanı təbii ki, yuxarıda göstərilən ölkələr ilə müqayisə etmək anlamsızdır. Bu səbəbdən dolayı da, bir sıra qonşu ölkələr ilə müqayisə etdik və region üzrə sığorta sıxlığına görə ən zəif nəticə məhz Azərbaycana məxsusdur. Azərbaycanda 2020-ci ildə əsasında adambaşına düşən ÜDM 14479.71 dollardır və müvafiq il üzrə adambaşına düşən sığorta haqqı isə 42 dollardır [10,11]. Hər 100 000 nəfərə düşən sığorta şirkətlərinin sayını hesablamaqla ölkə hüdudları çərçivəsində rəqabətqabiliyyətlilik mühitinin konsentrasiyasını ölçməyə çalışmışıq. Azərbaycanda 2021-ci il üçün hər 100 000 nəfərə 0.2 sığorta şirkəti düşür, Rusiyada isə bu göstərici 0.1-dir [4, 8]. Türkiyədə uyğun olaraq 0.08 təşkil edir və müvafiq göstərici üzrə Azərbaycan müqayisə edilən qonşu ölkələr arasında ən yaxşı mövqeyə sahibdir. İstərdik ki, ölkəmizi digər qonşu ölkələr ilə də müqayisə edək, təəssüf ki, müvafiq ölkələr üzrə sığorta ilə əlaqədar statistik məlumatlar əlçatan deyil. Bu ölçmə metodu bir daha hər bir ölkə üçün sığorta bazarının konsentrasiyası haqqında fikir bildirməyə imkan verir.

Qrafik 1.

Sığorta haqlarının ÜDM-də payı (%), 2020



Mənbə: Qrafik World Bank (2020); Swiss Re (2020) əsasında müəllif tərəfindən hazırlanmışdır.

Sığorta mədəniyyətinin formalaşması onun inkişafında başlıca rol oynayır. Ölkələrin iqtisadi quruluşu, sığorta sahəsində dövlət siyasəti yəni sığortalıların bir istehlakçı kimi hüquqlarının müdafiəsi, sosial-ekoloji mühit, regional risklər, ölkə əhalisinin əksərən kənd, yaxud şəhər yerində məskunlaşması və sair kimi faktorlar sığorta bazarının inkişafında mühüm aspektləri təşkil edir. Bütün bunların fonunda Azərbaycanda və bir sıra eyni mövqeyi paylaşan ölkələrdə sığortanın zəif inkişaf etməsinə bir digər amil fərdlərin zəif ehtimallı, lakin baş verdikdə ciddi maliyyə itkilərinə səbəb ola biləcək sığorta hadisələrinə qarşı sığorta olunmamasıdır [18, s.82]. Bu qəbildən olan sığorta hadisələrinə təbii fəlakətlər, yanğınlar, daşqınlar və sairi aid etmək olar. Sığorta bazarını tədqiq etdikdə həyat və qeyri-həyat sığorta bazarı məmulatlarının fərqliliyini göz ardı etməmək olmur. Bu nöqteyi-nəzərdən də həyat və qeyri-həyat sığortalarını ayrılıqda tədqiq etmək ehtiyacı yaranır. Sığorta bazarı ilə bağlı ölkələr haqqında məlumat qıtlığı vardır və bundan dolayı beynəlxalq mənbə kimi yalnızca OECD və Swiss Re-yə müraciət edə bilirik. OECD tərəfindən 49 ölkə arasında aparılan tədqiqatlara əsasən 2019-cu ildə qeyri həyat sığortası üzrə ilk yerləri uyğun olaraq avtonəqliyyat vasitələri (36.3%), tibbi və qəza hadisələri (21.3%), əmlakın yanğından və digər risklərdən sığortası (21.1%), məsuliyyət (6.2%), maddi zərər (3.6%), dənizçilik, aviasiya və digər nəqliyyat sığortaları (2.4%), yük daşıma (1%) və digər sığortalar (8.1%) tutmuşdur [16, s.10]. Göstəricilərin Azərbaycan ilə müqayisəsindən məlum olur ki, 2021-ci ildə tibbi və qəza sığortaları ümumi qeyri-həyat sığortası

üzrə birinci (39%), əmlakın yanğından və digər risklərdən sığortası (21%) ikinci, avtonəqliyyat vasitələrinin sığortası (15%) isə üçüncü yerdə qərarlaşmışdır (qrafik 2).

Qrafik 2.

Qeyri-həyat növü üzrə sığorta haqlarının strukturu (%)



Mənbə: Qrafik Azərbaycan Mərkəzi Bankının [5] statistik göstəriciləri əsasında müəllif tərəfindən hazırlanmışdır, 2021.

OECD araşdırmalarına görə 2019-cu ildə Rusiyada (80.2%), Fransada (73.3%), Finlandiyada (53.5%) və İslandiyada (33.2%) ümumi həyat sığortası ödəmələri kifayət qədər artmışdır, adı çəkilən ölkələr Rusiya istisna olmaqla sığorta sıxlığına görə də yaxşı yerdə qərarlaşmışlar [16, səh. 12]. Həyat sığortalarına görə ödəmələrin belə yüksək artışına səbəb bağlanmış sığorta müqavilələrinin müddətinin sona çatması və sığortalılara ödənişlərin paylanmasıdır. Həmin ildə B.Britaniyada isə həyat üzrə sığorta ödənişlərində 22.7 % azalma müşahidə olunmuşdur. Azərbaycanda həyat sığortası üzrə 2019-cu ildə 27.71% artım olmuşdur. Müqayisə üçün qeyd edək ki, həmin ildə Türkiyədə artım 17.2% olmuşdur və Azərbaycanın həyat sığortası üzrə ödənişləri qənaətbəxş hesab edilməlidir. Ölkəmizdə könüllü həyat sığortası üzrə ödənişlərin miqdarında 2019-cu ildə 28.23% artım, 2020-ci ildə 130% artım və 2021-ci ildə isə 15.94% azalma müşahidə olunmuşdur. Könüllü həyat sığortası üzrə haqların miqdarında isə 2019-cu ildə 28.23% azalma, 2020-ci ildə 13.86% artım və 2021-ci ildə isə 27.94% artım müşahidə olunmuşdur.

Qrafik 3.

Həyat növü üzrə sığorta haqlarının və ödənişlərinin paylanması



Mənbə: Qrafik Azərbaycan Mərkəzi Bankının [5] statistik göstəriciləri əsasında müəllif tərəfindən hazırlanmışdır, 2021.

Azərbaycanda toplanmış könüllü həyat sığortası üzrə 2021-ci ildə sığorta haqlarının 73.75%-i civarında ödənişlər edilmişdir (qrafik 3). Həyatın yaşam sığortası 2021-ci ildə toplanmış haqların 85.40 %-ini, ödənilmiş haqların isə 98.31% -ni təşkil edir və liderdir (Qrafik 3). Həyatın ölüm halından sığortası isə 2021-ci ildə toplanmış haqların13.13%-ni, ödənilmiş haqların isə 1.68%-ni təşkil edir.

Nəticə

Ölkələrarası müqayisəli təhlil nəticəsində əldə etdik ki, inkişaf etmiş ölkələrdə buna adekvat inkişaf etmiş sığorta bazarı mövcuddur. Bu nəticədən yola çıxaraq ölkələrin iqtisadi inkişaf səviyyəsini ölçmək üçün bir digər üsul kimi onların sığorta bazarını müqayisə etmək olar. Azərbaycanda sığorta bazarına diqqət və qayğının artırılması qeyri-neft sektorunun inkişafı zəmnində gələcəkdə sığortanın tamamilə ön plana çıxması və bununla iqtisadiyyatın həm də ayrı-ayrı sektorlarının inkişafında effektiv səmərə yarada bilər. Sığorta bazarının tənzimlənməsi istiqamətində atılan addımlar ilə bu sahədə qanun vericilikdəki boşluqların aradan qaldırılması və Avropa Birliyi ölkələrində tətbiq olunan Solvency II tənzimlənmə metodunun ölkəmizə uyğun modifikasiya edilərək tətbiqi Azərbaycanda sığortanın inkişafına ciddi təkan olar. Solvency II sistemi digər maliyyə institutlarından fərqli olaraq sırf sığorta şirkətləri üçün uyğunlaşdırılmış, sağlam və möhkəm prudensial çərçivə hesab olunur [6]. Bu sistem hər bir fərdi sığorta şirkətinin risk profilinə əsaslanaraq risk əsaslı kapital tutumunun müqayisəliliyini, ümumi şəffaflığı və rəqabət qabiliyyətini təşviq edir və ən əsası sığorta şirkətlərinin bazarda yerini möhkəmləndirməklə dolayısı ilə də istehlakçı hüquqlarını müdafiə edir. Bununla da ölkəmizdə sığortalıların sayı arta və bazarda potensial genişlənmə müşahidə etmək olar. Müxtəlif sahələrdə icbari sığortanın tətbiqi və fəaliyyət spektorunun genişləndirilməsi və möhkəmləndirilməsi dövlətin sığorta bazarında rolunu artırmaqla, eyni zamanda vəndaşlar üçün dayanıqlı sığorta təminatçısı rolunu da oynaya bilər. Bu nöqteyi-nəzərdən çıxış edərək sığorta bazarında çeşidli sahələr üzrə xidmətlər təklif edən icbari sığortaya ehtiyac vardır və bu ümumi ölkə sığorta bazarının inkişafında mühümdür. Azərbaycanda yerli sığorta bazarının mühafizə edilməsi və xarici sığortaçılara əhəmiyyətli dərəcədə məhdudiyyətlər qoyulması eyni zamanda sığorta fondlarının pul və digər maliyyə vasitələri kütləsinin ölkədə toplanmasıdır ki, bu da ölkə iqtisadiyyatında sığortaçılar və sığortalılar üçün mühüm əhəmiyyət kəsb edir. Çünki, bu fondlar büdcədən kənar hesab olunmaqla kifayət qədər irihəcimli maliyyə vasitələrinin tutarı olmaqla ölkə iqtisadiyyatının möhkəmlənməsini təmin edir. Bununla sığortaçıların sadəcə yerli şirkətlər ilə rəqabətinə və toplanan vəsaitin ölkə hüdudları çərçivəsində qalmasına şərait yaranır. Sığortalıları isə qanunun boşluqlarından faydalanaraq xarici sığortaçıların onların hüquqlarını mənimsəməsindən qoruyur, nəzərə alaq ki, sığorta Azərbaycanda nisbətən yeni fəaliyyət sahəsidir və bu sahədə sığorta üzrə ixtisaslaşan xarici köklü sığorta şirkətləri mövcuddur. Araşdırmalardan bir daha əldə etdik ki, sığorta bazarının inkişafı iqtisadi rifah ilə nəticələnə bilər və Azərbaycan üçün bu istiqamətdə kifayət qədər qət ediləcək məsafə vardır, yəni görüləcək işlər mövcuddur.

Ədəbiyyat

1. Central Bank of Armenia | Main indicators of Armenian insurance companies (2021) | URL: https://www.cba.am/Storage/EN/stat_data_eng/Insurance%20indicators.xlsx
2. Prokopjeva, E., Tankov, E., Shibaeva, T., Perekhozheva, E. (2021). Behavioral models in insurance risk management. Investment Management and Financial Innovations, 18(4), 80-94. doi:10.21511/imfi.18(4).2021.08
3. Sığorta haqları (2020) | Azərbaycan Mərkəzi Bankı | URL: https://uploads.cbar.az/assets/5f487f74a1541d59f9c2ec278.xlsx, 2020 (Accessed on 21 February 2022)

4. Sığorta icmalı (2021) | Azərbaycan Mərkəzi Bankı | URL: https://uploads.cbar.az/assets/3d4395ca54fd67f0c08367fe4.xlsx
5. Siniflər üzrə Sığorta haqları (2021) | Azərbaycan Mərkəzi Bankı | URL: https://uploads.cbar.az/assets/3d4395ca54fd67f0c08367fe4.xlsx (Accessed on 23 February 2022)
6. Solvency II Overview (2015) | URL: https://ec.europa.eu/commission/presscorner/detail/el/MEMO_15_3120 ---19
7. Türkiye Sigorta Birliği | Mali Tablolar ve İstatistikler (2020) | URL: https://www.tsb.org.tr/tr/istatistikler
8. Реестр страховых организаций – страховщики, перестраховщики, брокеры (2021) | URL: https://www.insur-info.ru/register/2021-08/?page=5
9. Центральный банк Российской Федерации | Динамические ряды основных показателей деятельности страховщиков (2020) | URL: http://cbr.ru/statistics/insurance/ssd_stat/#t4
10. GDP per capita, PPP (current international $) | International Comparison Program, World Bank | World Development Indicators database, World Bank | Eurostat-OECD PPP Programme; ID: NY.GDP.PCAP.PP.CD (Accessed on 10 February 2022)
11. Insurance density, in USD (2020) | Swiss Re Institute URL: https://www.sigma-explorer.com/index.html
12. Insurance Premium Income Up 37 Percent (2021) | Financial Tribune URL: https://financialtribune.com/articles/business-and-markets/108353/insurance-premium-income-up-37-percent
13. National Bank of Kazakakhistan | Total statement on insurance premiums of insurance (reinsurance) organizations (2020) | URL: https://nationalbank.kz/file/download/61960
14. National Statistics Office of Georgia | Main results of enterprises engaged financial and insurance activities (2020) | URL: https://geostat.ge/media/41104/Insurance-Activities-2016---2020_eng.xls
15. OECD (2019), Gross direct insurance premiums (indicator). doi: 10.1787/8fd6f107-en (Accessed on 18 February 2022)
16. OECD (2021). Global insurance market trends 2020. p.36 | URL: https://www.oecd.org/daf/fin/insurance/Global-Insurance-Market-Trends-2020.pdf

Мелек Аллахверди гызы Алиева

Особенности развития страховой системы

Резюме

Страхование-это в основном способ компенсации рисков, которые несет в себе современный мир, и еще одна его особенность-функция создания фонда, который, отражаясь тем самым в ВВП, косвенно участвует в сопоставлении макроэкономической мощи стран. Это, в свою очередь, порождает идею о том, что страны с сильной системой страхования-это страны, обладающие одновременно экономическим и социальным благополучием. Для того чтобы определить, насколько верна эта точка зрения и положение страхования в нашей стране, воспользуемся сравнительным анализом. В статье уделено внимание особенностям организации и развития страховой системы в современном турбизнесе. Прогресс, достигнутый в этой области, и текущая ситуация изучаются. В статье также проводится анализ взаимосвязи развития страхового рынка с благосостоянием, а также определение места Азербайджана на мировом страховом рынке и определение факторов, сдерживающих его.

Ключевые слова: *страхование, плотность страхования, страхование не жизни, страхование жизни, страховые фонды.*

Melek Allahverdi Aliyeva

Features of the development of the insurance system

Summary

Insurance is basically a method of compensating for the risks of the modern world, and another feature is the function of creating funds, thereby indirectly participating in the comparison of macroeconomic power of countries, reflected in GDP. This, in turn, creates the idea that countries with a strong insurance system are also economically and socially prosperous. To determine how true this opinion should be and the position of insurance in our country, we will use a comparative analysis. The article focuses on the features of the organization and development of the insurance site in modern tajurba. The progress achieved in this area and the current situation are investigated. Also, the article analyzes the relationship of the development of the insurance market with well-being and, in parallel, to determine the place of Azerbaijan in the world insurance market and to determine the factors reversing it.

Keywords: *insurance, insurance density, non-life insurance, life insurance, insurance funds.*

Elmi redaktor: i.e.d., dos. Y.Məmmədov
Daxil olub: 19.08.2022.
Çapa qəbul olunub: 25.08.2022.